**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının**
**sədri cənab Anar Bağırova**

Bakı şəhəri, Suraxanı rayonu, Oqtay Şabanov küçəsi ev 3 ünvanında yaşayan Azərbaycan Respublikasının vətəndaşı **Sultanova Samirə Pirəli qızı** tərəfindən

Telefon: 055 763-17-07

# TƏŞƏKKÜR MƏKTUBU

**Hörmətli Anar müəllim!**

Mən qürur hissi ilə Sizə müraciət edib şəxsən Sizə və tabeliyinizdə olan Bakı şəhəri 13 saylı Vəkillər Bürosunun vəkili Emin Məmmədova ürəkdən təşəkkür edirəm ki, Emin müəllim maddi imkansızlığımı başa düşüb ona müraciətdimdən sonra mənə göstərdiyi **təmənnasız** və keyfiyyətli hüquqi yardımı sayəsində uzun müddətdir mövcud olan ailə problemlərim hüquqi müstəvidə həllini tapdı.

2 aylıq mübarizədə Emin müəllim işlərinin çox olmasına baxmayaraq ona müraciət etdiyim anda sualıma təmkinlə və ətraflı cavab verərək məni maarifləndirdi. Onun dəstəyi sayəsində nəinki problemlərim hüquqi müstəvidə həllini tapdı eyni zamanda ərimin və onun qohumlarının mənə qarşı təhqiredici və alcaldıcı hərəkətlərinin birdəfəlik qarşısı alındı.

İndi də qarşı tərəf Emin müəllimin adını eşidəndə ondan çəkinir və mənə qarşı əvvəlki hərəkətləri etmirlər.

Emin müəllim nəinki ərimi və qohumlarıma eyni zamanda onlara havadarlıq edən Yasamal rayon icra və probasiya şöbəsinin icraçısına da qanunun gücünü göstərdi. Vəkilin dəstəyindən sonra uzun müddət idi ki telefonlarıma cavab verməyən icra məmuru i ildən artıq idi icra olunmayan tələbimi dərhal icra etdi.

Vəkil Emin Məmmədov barəsində çox danışmaq olar. O, işinin peşəkarı olmaqla yanaşı həmdə gözəl qəlbli və sadəliyi ilə qürur duyulası insandır.

Təbii ki, belə vəkilləri olan rəhbərlər də alqışlanmalıdır. Çünki məhz savadlı, peşəkar və cəsarəti insanları sizlər seçirsiniz.

Bir daha şəxs Sizə və mənə göstərdiyi **təmənnasız və keyfiyyətli hüquqi yardımı** görə Bakı şəhəri 13 saylı Vəkil Burosunun vəkili cənab Emin Məmmədova təşəkkürümü bildirirəm.

Sizə bu Ramazan ayında bol dua edəcəyəm.

Hörmətlə:

İmza: Samirə Sultanova

Məktub mənim sözlərimlə kamputurda yazılıb doğruluğumla imzamla təsdiq edirəm

Samirə Sultanova

15 Mart

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 1010
«18» 03 2024 il